# Neft səltənətindən "qara qızıl"ın yaratdığı irs: "Nobel" mükafatı



(əvvəli 1-ci səhifədə)

1594-cü ildə Balaxanıdakı neft quyularından birinin üzərində aşkar edilmiş daş yazı, quyunun hələ XVI əsrdə usta Allahyar Məmməd Nuroğlu tərəfindən qazıldığını göstərir. Əmin Əhməd Razi (İran, 1601) məlumat verirdi ki, XVI əsrin əvvəllərində Bakı ətrafında 500-ə qədər neft quyusu mövcud idi. Bu quyulardan həm qara, həm də ağ neft çıxarılırdı. Bunlar Azərbaycan neft sənayesinin əsrlər əvvəl formalaşdığını sübut edən faktlardandır.

1683-cü ildə İsveç səfirliyinin katibi olan alman səyyahı və həkimi Engelbert Kempfer Abşeron yarımadasındakı Balaxanı, Binəqədi və Suraxanı yataqlarından çıxarılan neftin İrana, Mərkəzi Asiyaya və Şimali Qafqaza göndərilməsini, Bakı neftinin beynəlxalq ticarətdə mühüm yer tutduğunu qeyd edib. 1846-cı ildə Bakı ərazisində, Bibiheybətdə dünya tarixində ilk dəfə olaraq sənaye üsulu ilə neft çıxarılmağa başlanılıb. Burada 21 metr dərinliyində qazılan quyu müasir neft sənayesinin başlanğıc nöqtəsi hesab edilir və Azərbaycanı dünya neft sənayesinin beşiyi kimi tanıdıb.

1859-cu ildə Bakıda ilk neftayırma zavodu inşa edildi. Zavod Bakı neftinin emal edilib bazarlara çatdırılmasında mühüm rol oynadı. 1863-cü ildə Cavad Məlikov Bakıda ilk kerosin zavodunu inşa etdirdi. Burada neftayırma prosesində soyuduculardan istifadə olunması dünyada bir ilk idi. 1867-ci ildə 15 neftayırma qurğusu fəaliyyət göstərirdi. Artıq Bakı nefti təkcə xammal kimi deyil, həm də emal olunmuş məhsul kimi beynəlxalq bazarlarda yer almağa başladı. Mənbələrə görə, 1803-cü ildə Qasımbəy Mənsurbəyov Bibiheybət yaxınlığında, dəniz sahilindən 18 və 30 metr aralıda iki neft quyusu qazdırmışdır. Bu, dənizdə neft hasilatına başlanmasının ilk nümunələrindən idi.

Azərbaycanın qədimdən bəri neftlə zəngin torpaqları XIX əsrin sonunda qlobal miqyasda diqqət mərkəzinə çevrildi. Bu dövrdə həm yerli sahibkarlar, həm də xarici investorlar neft sənayesinin inkişafına böyük töhfələr verdilər. XIX əsrin sonlarında Bakının neft sənayesində fəaliyyət göstərən 167 sahibkarın 49-u azərbaycanlı idi. Bu isə ümumi sahibkarların 24,8 faizini təşkil edirdi. Onların arasında Hacı Zeynalabdin Tağıyev, İsa bəy Hacınski, Murtuza Muxtarov, Şəmsi Əsədullayev və Seyid Mirbabayev kimi nüfuzlu şəxslər var idi. Bu şəxsiyyətlər öz zəhmətləri və təşəbbüsləri ilə Bakının neft sənayesində yeni eraya təkan verdilər. Hacı Zeynalabdin Tağıyev neft sahibkarı olmaqla bərabər, həm də xeyriyyəçi və milli maarifçilik hərəkatının liderlərindən biridir. O, əldə etdiyi sərvəti xalqın maariflənməsinə və sosial layihələrə yönəltməklə tarixdə iz qoydu. 1874-cü ildə Bakıda ilk səhmdar neft şirkəti - "Bakı Neft Cəmiyyəti" təsis edildi. Şirkət Azərbaycan neftinin emalı və ixracı üçün əsas mərkəzə çevrildi.

XIX əsrin sonlarında Bakıda xarici investorlar - Nobel qardaşları fəaliyyət göstərirdilər. Nobel ailəsi əslən İsveçdən olub, əvvəllər Rusiyaya Krım müharibəsi zamanı silah istehsal etmək məqsədilə gəlmişdi. Lakin onların taleyini dəyişən şəxs ailənin üzvü Robert Nobel oldu. 1873-cü ildə tüfəng qundaqları üçün qoz ağacı axtarışı məqsədilə Qafqaza gələn Robert Nobel Bakıda neft buruqlarını görüb heyrətə gəlir. Bakı o dövrdə qaynayıb-qarışan bir şəhər idi. Hər tərəfdə neft mədənləri və zəngin neft baronları var idi. Robert Nobel Bakıda gördüklərini dərhal qardaşı Lüdviq Nobelə bildirir. Robertin təklifi ilə Lüdviq Nobel Bakıya gəlir və 1875-1876-cı illərdə Nobel qardaşları (Robert, Lüdviq və Alfred) Bakıda kiçik bir neft müəssisəsi yaradırlar. Əvvəlcə ərazini kiçik bir sahədə icarəyə götürdülər və burada primitiv üsullarla neft hasilatına başladılar. Lakin Robert Nobel Bakıdakı neft işinin hələ də çox geridə qaldığını və istehsal texnologiyalarının primitiv olduğunu görüb buradakı sənayeni müasir üsullarla inkişaf etdirməyi planlaşdırırdı. Onun təşəbbüsü ilə Bakıya yeni texnologiyalar gətirilirdi, neft hasilatında daha səmərəli metodlar tətbiq edilirdi. Bu prosesdə Lüdviq Nobel mühüm rol oynadı. O, neft hasilatı və daşınması üçün yeni avadanlıqlar sifariş etdi, zavodlar inşa etdirdi və neftin daşınması üçün xüsusi çənlər hazırlatdı. 1879-cu il mayın 18-də Nobel qardaşları öz müəssisələrini "Tovarişesti o Neftyanogo Proizvodstvo Bratya Nobel" (Nobel Qardaşları Neft istehsalı cəmiyyəti) anonim şirkətinə çevirdilər. Bu, Bakıda neft sənayesinin tam kapitalist formasına keçidinin rəmzi idi. Şirkət qısa müddət ərzində hasilatı artırmaqla yanaşı, neftin emalı və daşınması sahəsində də innovativ addımlar atdı. Onlar dünyada ilk dəfə olaraq neft daşıyan xüsusi "Zoroastr" adlı tankerləri istifadəyə verdilər. Bu tanker Bakıdan nefti Rusiyaya və digər Avropa ölkələrinə daşımaq üçün nəzərdə tutulmuşdu. Nobel qardaşları Bakıda yalnız neft hasilatını genişləndirməklə kifayətlənmədilər. Onlar həm də şəhərin infrastrukturunun yenidən qurmağa başladılar, Bakıda Avropa üslubunda zavodlar və emalatxanalar inşa etdirdilər.




Robert Nobel 1880-ci ildə xəstəliyi səbəbindən Bakını tərk etsə də, o, ömrünün sonuna qədər müəssisənin şəriki olaraq qaldı. Onun Bakıda başlatdığı neft əməliyyatlarını qardaşı Lüdviq Nobel davam etdirdi və daha da genişləndirdi. Lüdviq Nobel həm istehsal, həm də texnoloji sahələrdə əhəmiyyətli yeniliklər tətbiq edərək müəssisənin gəlirlərini daha da artırdı. XIX əsrin sonlarında Bakıdakı neft quyuları hələ də primitiv üsullarla qazılırdı. Lakin Nobel qardaşları müasir texnologiyaların əhəmiyyətini anlayaraq Amerikadan rotor qazma avadanlıqlarını Bakıya gətirdilər. Rotor qazma üsulu ənənəvi qazma üsullarından daha sürətli və effektiv idi. Bu yeni texnologiyanın tətbiqi üçün Nobel qardaşları ABŞ-dan peşəkar qazma ustalarını Bakıya dəvət etdilər. İlk rotor qazma quyusu Suraxanıda qazıldı və müvəffəqiyyətlə başa çatdırıldı. Bu üsul Bakıda neft hasilatının keyfiyyətini və sürətini əhəmiyyətli dərəcədə artırdı. Bundan sonra rotor qazma üsulu ilə qazılan quyuların sayı ildən-ilə artmağa başladı və bu üsul Azərbaycanın neft sənayesində yeniliyə çevrildi.



Nobel qardaşları neft sahələrində daha dəqiq və səmərəli hasilat aparmaq məqsədilə geoloji araşdırmalara böyük önəm verirdilər. Bu məqsədlə onlar 1880-ci illərdə Stokholmdan məşhur geoloq Şeqrini Bakıya dəvət etdilər. Şeqrinin tədqiqatları nəticəsində Bakı və ətraf ərazilərdəki neft yataqlarının geoloji vəziyyəti və potensial ehtiyatları araşdırıldı. Şeqrinin ən əhəmiyyətli kəşflərindən biri Pirallahı adasında qazılan quyu idi. 1904-cü ildə burada dərinliyi 500 metrə yaxın olan quyu qazıldı və bu, həmin dövr üçün qeyri-adi bir hadisə sayılırdı. Bundan əlavə, Şeqrinin rəhbərliyi ilə Qroznı, Maykop və Dərbənddə də yeni quyular qazıldı və burada da böyük neft ehtiyatları aşkarlandı. Bu dövrdə geoloji tədqiqatların nəticələri yalnız Nobel qardaşlarının müəssisəsinə deyil, ümumilikdə Azərbaycanın neft sənayesinə böyük fayda verdi. Şeqrinin əldə etdiyi məlumatlar, neft yataqlarının daha düzgün və elmi əsaslarla işlənməsinə şərait yaratdı. 1880-ci illərin sonunda Nobel qardaşları neftin daşınmasını daha səmərəli etmək üçün Bakıdan Batuma uzanan neft kəmərinin inşasını planlaşdırmağa başladılar. Bu dövrdə Bakı neftinin dünya bazarlarına çıxışı yalnız dəvələr və primitiv nəqliyyat vasitələri ilə həyata keçirilirdi. Bu isə həm vaxt, həm də maliyyə baxımından səmərəsiz idi. Bakı-Batum neft kəməri bu problemi həll etmək üçün ən uyğun həll yolu kimi düşünüldü. Kəmərin inşası nəticəsində Bakı nefti birbaşa Qara dəniz sahilinə, Batuma çatdırılır, buradan isə neft tankerləri ilə Avropanın müxtəlif ölkələrinə daşınırdı. Bu kəmər vasitəsilə nəqliyyat xərcləri xeyli azaldı və Azərbaycan neftinin beynəlxalq bazarlarda rəqabət qabiliyyəti artdı. Kəmərin inşası ilə paralel olaraq Nobel qardaşları 1883-cü ildə Zaqafqaziya dəmir yolunun çəkilməsinə də dəstək verdilər. Dəmir yolunun çəkilməsi neftin daşınmasını daha da sürətləndirdi və Bakının iqtisadi mövqeyini gücləndirdi.




Rotor qazma üsulunun tətbiqi və Şeqrinin geoloji tədqiqatları Nobel qardaşlarına Azərbaycanın yeni neft yataqlarını kəşf etmək imkanı verdi. "Nobel qardaşları birliyi" özlərinin və Bakıdan aldıqları 1 milyard 426 milyon pud neft məhsullarını daxili və xarici bazarlara çıxarmışlar. Onlardan 1 milyard 174 milyon pudu Xəzər dənizi və Volqa çayı ilə Rusiyaya, 252 milyon pudu isə Qara dənizdən dünya bazarlarına çıxmaq üçün Zaqafqaziya dəmir yolu vasitəsilə daşınmış və satışdan 868 milyon rubl əldə edilmişdir ki, onun da 178 milyon rublu xarici bazarların payına düşürdü.

Qeyd etmək lazımdır ki, "Nobel qardaşları birliyi" 433 neft quyusu qazmış və həmin quyulardan 900 milyon pud neft hasil etmişlər. Qardaşlar nəinki neftin çıxarılmasında və neft məhsullarının dünya bazarına göndərilməsində, hətta ağ neft və sürtkü yağları istehsalında da birinciliyi əldə saxlayırdılar. Onu demək kifayətdir ki, 1879-1904-cü illər ərzində "Nobel qardaşları birliyi" 1 milyard 195 milyon pud neft emal etmişdir. Yerli sahibkarlar ağ nefti istehsal edəndən sonra yerdə qalan məhsulları dənizə axıtdıqları halda, Nobellər onları irihəcmli, dəyirmi rezervuarlarda saxlayır, satır və milyonlar qazanırdılar. Onların zavodlarında yalnız 1912-ci ildə 37,6 milyon pud yüksəkkeyfiyyətli neft məhsulları istehsal edilmişdir. Nobellərin boru kəmərləri ilə ildə 65 milyon pud neft nəql edilirdi. Bu göstəricilər üzrə onların bərabəri yox idi.



Nobel qardaşları Bakıda əldə etdikləri uğurları daha da artırmaq məqsədilə neft sənayesində digər iri şirkətlərlə əməkdaşlıq etməyə başladılar. O dövrdə Bakıda və Rusiyada neft sənayesində güclü inhisarçılardan biri Rotşildə məxsus "Mazut cəmiyyəti" idi. Nobel qardaşları bu cəmiyyətlə əməkdaşlıq quraraq "Nobel-Mazut" inhisar birliyini yaratdılar. Bakıda neft istehsalının 20, ağ neft emalının isə 40 faizi Nobel qardaşlarının payına düşürdü. Xəzər dənizi vasitəsilə Rusiyaya daşınan duru yanacağın 57, sürtkü yağlarının 57,5 və ixrac olunan neftin 60 faizi məhz "Nobel-Mazut" birliyinin əlində cəmləşmişdi. XX əsrin əvvəllərində Rusiyada inqilabi hərəkatlar gücləndi. Sənaye bölgələri kimi Bakı da bu dalğadan təsirlənməyə bilməzdi. 1905-1907-ci illərdə Bakıda fəhlələrin tətilləri və iğtişaşları Nobel qardaşlarının müəssisələrini də əhatə etdi və onların fəaliyyətinə ciddi zərbə vurdu.

1920-ci il aprelin 28-də bolşeviklərin Bakını işğal etməsi Nobel qardaşlarının buradakı iqtisadi fəaliyyətinə son qoydu. Sovet hökuməti Bakının bütün neft müəssisələrini milliləşdirdi və Nobel qardaşlarının mülkləri dövlətin nəzarətinə keçdi. Nobel qardaşlarının Bakıda nəhəng neft imperiyası tarixə çevrildi.

Nobel qardaşlarının Bakıda qurduqları neft sənayesi müəssisələrindən əldə etdikləri sərvətin bir hissəsi Alfred Nobel 1895-ci ildə öz vəsiyyətilə elmi nailiyyətlərə, sülh və ədəbiyyat sahəsində müstəsna uğurlara görə mükafatların təsis edilməsinə sərf olundu. Beləliklə, "Nobel" mükafatı məhz Bakının neft gəlirlərinə əsasən təsis edildi. Alfred Nobelin vəsiyyəti ilə Nobel Fondu yaradıldı və 1901-ci ildən etibarən ilk "Nobel" mükafatları təqdim olundu.

Bu fakt bir daha təsdiq edir ki, Azərbaycan nefti təkcə iqtisadi mənfəət deyil, həm də elmə və sülhə xidmət etmiş qlobal irs yaratdı. Nobel qardaşlarının Bakıda qurduqları sənaye kompleksindən əldə olunan gəlirlər dünyanın ən prestijli mükafatının əsasını qoydu.

Nobel qardaşlarının Bakı neft sənayesindəki fəaliyyəti Azərbaycan iqtisadiyyatında müstəsna bir dövr olaraq yadda qaldı. Onların tətbiq etdikləri rotor qazma texnologiyası, geoloji kəşfiyyat işləri və nəqliyyat infrastrukturunun qurulması Azərbaycanın neft sektorunu qlobal səviyyədə inkişaf etdirdi. Beləliklə, Nobel qardaşlarının Bakıdakı fəaliyyəti neft sənayesinin inkişaf tarixi, həm də Azərbaycan torpaqlarından çıxan "qara qızıl"ın dünyada yaratdığı nəhəng irs hekayəsidir.

Ləman TƏHMƏZ,
"Respublika".